

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 247 (23.158)

*25 dekabr 2018-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verilib ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olublar.

* * *

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ Şəhər"də 110 kilovoltluq "Ağ Şəhər-2" və "Bakıxanov" yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də "Ağ Şəhər" piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak ediblər, tikintisi yekunlaşan Fəvvarələr Meydanı Parkı ilə tanış olublar.

* * *

Prezident İlham Əliyev dekabrın 24-də Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçi qəbul edib.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası 2018-ci il dekabr ayının 27-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsinin təsdiq edilməsi
4. İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsinin təsdiq edilməsi
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı
6. "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi
7. "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi
8. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 dekabr 2018-ci il*

## Şərur yallıları haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Azərbaycan türklərinin qədim mədəniyyətinin bir hissəsi olan Şərur yallıları xoreoqrafiya, instrumental və vokal musiqini özündə birləşdirən nadir yaradıcılıq nümunəsi, əcdadlarımızın dünyagörüşünün, bədii-estetik təfəkkürünün təzahürüdür. Yallıların Gəmiqaya təsvirlərində öz əksini tapması Naxçıvanda yallı sənətinin çox qədim tarixə malik olduğunu göstərir.

Əshabi-Kəhf və Gəmiqaya kimi, Şərur yallıları da Naxçıvanın incisi, xalqımızın tarixi yaddaşının və milli dəyərlər sisteminin ayrılmaz tərkib hissəsidir. Bu amil əsas götürülərək Naxçıvanda yallı sənətinin inkişafı sahəsində kompleks tədbirlər görülmüş, yallılar nota köçürülmüş, "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunmuşdur. Bu gün muxtar respublikada "Şərur" Xalq Yallı Ansamblı və rayon mədəniyyət şöbələrinin nəzdində yallı qrupları fəaliyyət göstərir. Bu sahədə görülən işlərin davamı olaraq 2018-ci ildə də yallı sənəti ilə bağlı tədqiqatlar aparılmış, bu nadir irsin YUNESKO səviyyəsində qorunması üçün "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar aidiyyəti üzrə təqdim olunmuş, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 dekabr 2018-ci il*

## Naxçıvan teatrında Hüseyn Cavidin "Xəyyam" dramı tamaşaya qoyulmuşdur





Dekabrın 22-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında dahi Azərbaycan şair-dramaturqu Hüseyn Cavidin "Xəyyam" dramı əsasında hazırlanmış eyniadlı tamaşaya baxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tamaşaya baxmışdır.

Görkəmli filosof-şair, dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatında öz dəstxətti ilə yeni mərhələnin – mənzum dramın əsasını qoymuşdur. Şərq klassik poeziyasının dahilərindən olan şair-mütəfəkkir Ömər Xəyyamın həyatından bəhs edən "Xəyyam" dramı da ədibin dəyərli yaradıcılıq nümunələrindəndir. Naxçıvan teatrında ilk dəfə səhnələşdirilən tamaşada ideyanın mahiyyətinə uyğun olaraq, müxtəlif psixoloji hadisələrin təsvirində Xəyyamın həyat, insanlıq, məhəbbət, xeyirxahlıq haqqında fəlsəfi düşüncələri tamaşaçıya çatdırılmışdır. Tamaşada Xəyyamla yanaşı, dövrünün böyük diplomatı Xacə Nizam, İsmaililər hakimiyyətinin banisi Həsən Sabbah, Səlcuqlar sülaləsinin hökmdarı Alp Arslan və oğlu Məlikşah Cəlaləddinin də bədii obrazları yaradılmışdır.

Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun quruluş verdiyi tamaşanın rəssamı Xalq rəssamı Hüseynqulu Əliyev, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimovadır. Aktyorlardan Tofiq Seyidov, Nurbəniz Niftəliyeva, Məmməd Mehdiyev, Səyyad Məmmədov, Ələsgər Quliyev, Həsən Ağasoy və başqaları obrazların dili ilə əsərin uğurlu səhnə həllinə nail ola bilmişlər. Tamaşada böyük şair və mütəfəkkir Ömər Xəyyamın simasında dövrünün fövqünə yüksələn romantik qəhrəman canlandırılmışdır. Xəyyamın həyat eşqi və yaradıcılığı sənətkar və cəmiyyət probleminə münasibətin ifadəsinə çevrilərək tamaşaçılarda müsbət duyğular oyatmışdır.

Bütün həyatı boyunca həqiqət uğrunda mübarizə aparan, ən böyük xoşbəxtliyin yüksək təhsil və mədəniyyətə çatmaqla mümkün olduğunu qeyd edən böyük mütəfəkkir Hüseyn Cavidin "Xəyyam" pyesinin qəhrəmanları da bu ideyaların daşıyıcısı kimi tamaşanın uğurlu səhnə həllinə nail olmuşlar. Romantik pafos və mütləq həqiqətə çatmağa göstərilən cəhd tamaşanın ədəbi-bədii məramını səciyyələndirən başlıca cəhət kimi ön plana çıxmışdır.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu tamaşa münasibətilə kollektivi təbrik edərək demişdir:

*Ardı 2-ci səhifədə*

Naxçıvan teatrında çox dәyәrli әsәrlәr tamaşaya qoyulmuşdur. Bu gün tәqdim olunan "Xәyyam" tamaşası da uğurlu alınmışdır. Fәlsәfi dram әsәrlәrinin sәhnәyә qoyulması üçün rejissor işi vә aktyor sәnәti mühüm amildir. "Xәyyam" tamaşasında da uğurlu vә yaradıcı rejissor işi vә aktyor sәnәti vardır. Aktyorların çox hissәsinin gәnc olmasına baxmayaraq, sәhnәdә bunu hiss etmәk mümkün deyildi. Rollar mәharәtlә ifa olunurdu. Bütün bunlar istedadla yanaşı, hәm dә sәnәtә olan sevginin nәticәsidir.

Ali Mәclisin Sәdri demişdir: Hüseyn Cavidin әsәrlәri hәyat fәlsәfәsi üzәrindә qurulubdur. "Xәyyam" dramı da o dövr Şәrqinin hәyatını әks etdirir. Hüseyn Cavid әsәrdә o dövrә xas olan eyş-işrәt vә xurafatın әksinә olaraq әn böyük hәyat amalına elm vә mәdәniyyәtlә çatmağın yolunu göstәrmişdir. Tamaşada bu amillәr ustalıqla çatdırılırdı.

Ali Mәclisin Sәdri yaradıcı kollektivә bir daha tәşәkkürünü bildirmiş, onları qarşıdan gәlәn Dünya Azәrbaycanlılarının Hәmrәyliyi Günü vә Yeni il bayramı münasibәtilә tәbrik etmişdir.

Tamaşanın rejissoru, Azәrbaycan Respublikasının Әmәkdar artisti Tofiq Seyidov Naxçıvan teatrının inkişafının göstәrilәn qayğının vә diqqәtin nәticәsindә mümkün olduğunu bildirmiş, muxtar respublikanın mәdәniyyәt işçilәri adından Ali Mәclisin Sәdrinә minnәtdarlıq etmiş vә qarşıdan gәlәn bayramlar münasibәtilә tәbriklәrini çatdırmışdır.

Sonra xatirә şәkli çәkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Mәclisinin mәtbuat xidmәti**



## Şahmat Federasiyasında qarşıda duran vәzifәlәr müzakirә olunmuşdur

*Dekabrın 24-dә Naxçıvan Şahmat Federasiyasında Naxçıvan Muxtar Respublikası Ali Mәclisindә "Naxçıvan Muxtar Respublikasında bәdәn tәrbiyәsi vә idmanın hazırkı vәziyyәti vә qarşıda duran vәzifәlәr haqqında" keçirilәn müşavirә ilә bağlı yığıncaq olmuşdur.*





Әvvәlcә Naxçıvan Muxtar Respublikası dövlәt idarәlәrinin әmәkdaşları arasında ilk dәfә olaraq keçirilәn şahmat üzrә birinciliyin qaliblәri mükafatlandırılmışdır. Qeyd edәk ki, birincilikdә qalib adını 6,5 xalla Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlәt Agentliyinin әmәkdaşı Talıb Babayev qazanmışdır. Heydәr Әliyev adına Hәrbi Liseyin әmәkdaşı Toğrul Hәsәnzadә (6 xal) ikinci, Naxçıvan Muxtar Respublikası Ekologiya vә Tәbii Sәrvәtlәr Nazirliyinin әmәkdaşı Әdalәt Mәmmәdov (6 xal) isә üçüncü olmuşdur.

Şahmat Federasiyasının sәdri Seymur Talıbov yığıncaqda çıxış edәrәk demişdir ki, "Naxçıvan Muxtar Respublikası Ali Mәclisindә keçirilәn müşavirәdә idmanın inkişafı ilә bağlı müәyyәn iradlar bildirilmişdir. Dövlәt tәrәfindәn qayğı vә diqqәtin göstәrilmәsinә baxmayaraq, Şahmat Federasiyasında hәlә dә nöqsanların olduğu qeyd edilmişdir. Mövcud nöqsanların sәbәbi federasiya tәrәfindәn istedadlı uşaqların düzgün istiqamәtlәndirilmәmәsi, onlarla mәşqçi-müәllimlәrin yaxından maraqlanmamasıdır. Yığıncağı keçirmәkdә mәqsәd qarşıdakı ildә göstәrilәn iradları aradan qaldırmaq, verilәn tövsiyә vә tapşırıqları yerinә yetirmәk, keçirilәn ölkәdaxili vә beynәlxalq turnirlәrdә uğur qazanmaqdır. Hazırda federasiyanın maddi-texniki bazası güclәndirilib, şәhәr vә rayonlarda şahmat mәrkәzlәri, mәktәblәri fәaliyyәt göstәrir. İdmançıların uğur qazanması üçün hәr cür şәrait yaradılıb.



Seymur Talıbov diqqәtә çatdırmışdır ki, artıq yeni il üçün federasiyanın mükafat fondu tәsis edilib. Fondu yaratmaqda mәqsәd şahmatçıların, elәcә dә mәşqçi-müәllimlәrin bu idman növünә olan marağını daha da artırmaq, muxtar respublikada şahmatı kütlәvi hala gәtirmәkdir. Eyni zamanda fond tәrәfindәn il әrzindә uğur qazanan idmançılarımız, mәşqçi-müәllimlәrimiz mükafatlandırılacaqlar. Qarşıdakı ildә federasiya işini verilәn tövsiyә vә tapşırıqlar әsasında quracaqdır. İl әrzindә hәr ay mütәmadi olaraq rayon şahmat mәktәblәrindә görüşlәrin olacağını qeyd edәn Şahmat Federasiyasının sәdri çıxışının sonunda növbәti ildә muxtar respublikada şahmatın inkişafı istiqamәtindә daha böyük uğurlara imza atılacağına әminliyini bildirmişdir.



Naxçıvan Muxtar Respublikasının tәhsil naziri Rәhman Mәmmәdov qeyd etmişdir ki, adıçәkilәn müşavirәdә Tәhsil Nazirliyinin dә qarşısına müәyyәn vәzifәlәr qoyulmuşdur. Bu tapşırıqların icrası üçün Tәhsil Nazirliyi Gәnclәr vә İdman Nazirliyi, idman federasiyaları ilә birgә bu sahәnin kütlәvi hal alması üçün tәsdiq edilmiş tәdbirlәr planına uyğun olaraq işlәr görür. Belә federasiyalardan biri dә Şahmat Federasiyasıdır. Şahmatın muxtar respublikada inkişafı üçün hәrtәrәfli şәrait yaradılıb, şahmat mәrkәzlәri vә mәktәblәri tikilәrәk idmançılarımızın ixtiyarına verilib. Eyni zamanda yeni inşa olunan ümumtәhsil mәktәblәrindә şahmat siniflәri şagirdlәrin ixtiyarına verilib. Lakin mәktәblәrdә şahmatın tәdrisi ilә bağlı müәyyәn problemlәr var. Bunun aradan qaldırılması üçün mәktәblәrdә şahmatı tәdris edәn müәllimlәrә verilmiş sertifikatlara yenidәn baxılır. Federasiyanın kömәkliyi ilә hәmin müәllimlәr yenidәn kurslara cәlb olunacaq. Muxtar respublikada şahmatın inkişafı, kütlәvilәşmәsi üçün nazirlik bundan sonra da federasiya ilә birgә işlәrini günün tәlәblәrinә uyğun quracaq vә göstәrilәn iradlar qısa vaxtda aradan qaldırılacaq.

Yığıncaqda çıxış edәn Naxçıvan Muxtar Respublikasının gәnclәr vә idman naziri Azad Cabbarov diqqәtә çatdırmışdır ki, dövlәt idarәlәri işçilәri arasında keçirilәn şahmat üzrә açıq birincilik muxtar respublikanın idman tarixindә ilkdir. Birinciliyin yüksәk sәviyyәdә tәşkili isә Şahmat Federasiyasının işini günün tәlәblәrinә uyğun qurduğunun göstәricisidir. "Naxçıvan Muxtar Respublikasında bәdәn tәrbiyәsi vә idmanın hazırkı vәziyyәti vә qarşıda duran vәzifәlәr haqqında" keçirilәn müşavirәdә verilәn tapşırıqların icrası mәqsәdilә tәdbirlәr planının hazırlanması, görülәn işlәrin müzakirәsi vә qarşıda duran vәzifәlәrin müәyyәnlәşdirilmәsi üçün ilk dәfә olaraq belә yığıncağı da mәhz Şahmat Federasiyası tәşkil edib. Eyni zamanda federasiyanın mükafat fondunu tәsis etmәsi tәqdirәlayiq haldır. Belә bir addımın atılması şahmatçıların uğur qazanması vә bu idman növünün muxtar respublikada kütlәvi hal alması üçün әlavә stimuldur. Gәnclәr vә İdman Nazirliyi mütәmadi olaraq Şahmat Federasiyası ilә birgә çalışır. Müşavirәdә verilmiş tapşırıqlara uyğun olaraq qarşıdakı ildә dә hәr iki qurum arasında әmәkdaşlıq davam edәcәkdir. Gәnclәr vә idman naziri çıxışının sonunda keçirilәn birincilikdә qalib gәlәn şahmatçıları tәbrik etmiş, onlara gәlәcәk yarışlarda uğurlar arzulamışdır.

Sonra 2019-cu il üçün hazırlanmış tәdbirlәr planı imzalanmışdır.

Yığıncağın sonunda mәşqçi-müәllimlәrin fikir vә tәkliflәri dinlәnilmişdir.

Eyni zamanda il әrzindә uğur qazanan zәka sahiblәri vә "İlin mәşqçisi" nominasiyasının qalibi Emin Hacıyev mükafatlandırılmışdır. Mükafatları federasiyanın sәdri Seymur Talıbov, gәnclәr vә idman naziri Azad Cabbarov tәqdim etmişlәr.

Valideynlәr adından çıxış edәn Rәşad Mәmmәdov vә Cavid Allahverdiyev Şahmat Federasiyasının sәdrinә minnәtdarlıqlarını bildirmişlәr.

Şahmat Federasiyasının sәdri Seymur Talıbov bütün idmançıları qarşıdan gәlәn Dünya Azәrbaycanlılarının Hәmrәyliyi Günü vә Yeni il bayramı münasibәtilә tәbrik etmiş, onlara gәlәcәk karyeralarında uğurlar arzulamışdır.

Sonda xatirә şәkli çәkdirilmişdir.

**"Şәrq qapısı"**

## *"Nağdsız ödәyin, hәdiyyә qazanın!"* adlı hәvәslәndirici tәdbirin onuncu tirajı keçirilib

*Muxtar respublikamızda nağdsız ödәnişlәrin stimullaşdırılması mәqsәdilә әnәnәvi olaraq keçirilәn hәvәslәndirici tәdbirin onuncu tirajının qaliblәri müәyyәnlәşib.*

1 iyul 2018-ci il tarixdәn 1 dekabr 2018-ci il tarixәdәk daha çox nağdsız ödәnişlәr edәn muxtar respublika sakinlәri bu tirajın nәticәlәrinә görә qiymәtli hәvәslәndirici hәdiyyәlәrlә mükafatlandırılıblar.

Dünәn Naxçıvan Biznes Mәrkәzindә bu münasibәtlә keçirilәn tәdbirdә çıxış edәn vergilәr nazirinin müavini, baş vergi xidmәti müşaviri Fәrrux Әkbәrov bildirib ki, "2016-2018-ci illәrdә Naxçıvan Muxtar Respublikasında elektron ödәniş xidmәtlәrinin tәtbiqinin vә nağdsız hesablaşmaların genişlәndirilmәsi üzrә Proqram"da Vergilәr Nazirliyinә nağdsız ödәnişlәrin hәcminin artırılması mәqsәdilә kart sahiblәri arasında hәvәslәndirici tәdbirlәrin keçirilmәsi tapşırılıb.

Qeyd olunub ki, 1 dekabr 2018-ci il tarixә muxtar respublikanın ticarәt vә iaşә obyektlәrindә 1272 POS-terminal quraşdırılıb. Nәticәdә, 2018-ci ilin 11 ayı әrzindә muxtar respublika üzrә nağdsız ödәnişlәrin hәcmi 31 milyon 926 min manata çatıb ki, bu da ötәn ilin müvafiq dövrü ilә müqayisәdә 3 milyon 867 min manatdan çoxdur.

Diqqәtә çatdırılıb ki, bu sahәdә stimullaşdırıcı tәdbir kimi 2014-cü ildәn başlayaraq keçirilәn 9 tirajda 1844 vәtәndaşa 120 min manat dәyәrindә müxtәlif hәvәslәndirici hәdiyyәlәr verilib. 10-cu tirajda isә 335 şәxsә 20 min manat dәyәrindә hәdiyyәlәr tәqdim olunur.

Tәdbirdә çıxış edәn Maliyyә Bazarlarına Nәzarәt Palatasının Naxçıvan Muxtar Respublikası üzrә İdarәsinin rәisi Tapdıq Әliyev bildirib ki, 2018-ci ilin 11 ayı әrzindә muxtar respublika sakinlәri tәrәfindәn ödәnilәn nağdsız ödәnişlәrin 10 milyon 76 min manatı POS-terminal, 21 milyon 850 min manatı isә internet vә digәr ödәniş vasitәlәri ilә olub.

Naxçıvan Muxtar Respublikası Vergilәr Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilmәsi şöbәsinin rәisi Rәşad Әliyev çıxışında bildirib ki, hәvәslәndirici tәdbirin budәfәki tirajında Naxçıvan şәhәri üzrә 70 şәxsә qiymәtli hәdiyyәlәr tәqdim olunacaq. Bu hәdiyyәlәr 400 manatdan yuxarı hәcmdә nağdsız ödәnişlәr edәnlәr arasında üç meyar üzrә müәyyәnlәşdirilib.

Hәmin gün Naxçıvan şәhәri ilә yanaşı, muxtar respublikanın Şәrur, Sәdәrәk, Kәngәrli rayonlarında da analoji tәdbirlәr keçirilib. Bu tәdbirlәrdә çıxış edәn Mәrkәzi Bankın Naxçıvan Muxtar Respublikası İdarәsinin İqtisadi tәhlil vә statistika şöbәsinin rәisi Hafiz İsmayılbәyli bildirib ki, muxtar respublikamızda nağdsız ödәnişlәrin hәcminin artmasında yaradılmış infrastruktur imkanları ilә yanaşı aparılmış maariflәndirici tәdbirlәrin dә mühüm әhәmiyyәti vardır.

Qeyd edәk ki, bu gün Babәk, Culfa, Ordubad vә Şahbuz rayonlarında da nağdsız ödәnişlәr sahәsindә fәallıq etmiş şәxslәrә hәdiyyәlәr tәqdim olunacaq.

**Әli CABBAROV**

## Əsgər qəlbində səslənən nəğmə çələngi

*Əsgər nə istəyir?*
*Bir təzə nəğmə.*
*Nəğməsiz darıxır əsgər tüfəngi.*
*Bir əsgər qəlbində qopan zümzümə*
*Bir Vətən daşını isidəcəkdir.*

Hazırlaşıb evdən tələm-tələsik



çıxarkən televiziya kanallarının birindən Xalq şairi Məmməd Arazın əsgər oğullarımızın vətənpərvərliyi, şücaəti ilə bağlı qələmə aldığı "Əsgər məktubu" şeirini eşidirəm. Qəlbimə dolan munis duyğuların təsirindən qeyri-iradi ayaq saxlayır, yuxarıdakı misralara qulaq asıram. Qəribədir, elə bil verilişin aparıcısı əvvəlcədən gedəcəyim yeri müəyyən edib bu şeiri mənim üçün səsləndirir. Beləcə, böyük ruh yüksəkliyi ilə evdən çıxır, əlində silahı, qəlbində Vətən eşqi ilə alovlanan, gecə-gündüz torpaqlarımızın keşiyini çəkən məğrur oğulların oylağına üz tuturam.

Naxçıvan şəhərindən "N" hərbi hissəyə aparan uzun və rahat yolla hərəkət edən avtobusun pəncərəsindən zirvəsi buludlara söykənən, sinəsində mərd oğulların məskən saldığı dağları seyr edirəm. Yanımda əyləşib mənimlə birgə həmin mənzərələrə tamaşa edən yolyoldaşım əli ilə göstərərək deyir ki, əvvəllər bax o görünən postlardan əsgərlər ilin soyuq vaxtlarında aşağı düşə bilmirdilər. Şəraitsizlik üzündən valideynlər də övladlarının görüşünə gec-gec gələrdilər. Ancaq indi vəziyyət tamamilə dəyişib, o postlarla nəinki əlaqə asanlaşıb, hətta orada xidmət keçən əsgərlər üçün gözəl məişət şəraiti də yaradılıb. Dağ cığırları ilə üzü sıldırım qayalara doğru uzanan, ilan kimi qıvrılıb-açılan sarı libaslı qaz xətti də məhz mərd oğulların rahatlığı üçündür, – deyən yolyoldaşım fikirlərini tamamlayır. Öz-özümə deyirəm ki, bu gördüklərim görüşünə tələsdiyim hərbi hissə barədə çox cüzi məlumat olar, yaqin ki, hələ qarşıda məni bundan da maraqlı məqamlar gözləyir...

Budur, artıq dağların arasından hərbi hissənin gözəl, yaraşıqlı, müasir görkəmli binası, qənşərində isə şücaətli, mətin Azərbaycan əsgəri görünür. Onlardan bəziləri məşğələ hazırlıqları keçir, digərləri geniş idman meydançasında məşq edir, döyüş qabiliyyətlərini, fiziki güclərini artırmaq üçün səylə çalışırlar. Kənarda dayanıb Vətən övladlarının hərəkətlərini seyr edən, arabir müəyyən komandalarla onları daha da cəldliyə, çevikliyə səsləyən Əlahiddə Ümumqoşun Ordunun zabiti, baş leytenant Bəhruz Vəliyevə yaxınlaşıram. Məni səmimiyyətlə qarşılayır, yataqxanada yaradılan şəraitlə tanış edir. Öyrənirəm ki, müasir üslubda inşa olunan ikimərtəbəli binada 112 yerlik əsgər, 14 yerlik zabit yataqxanaları, hərbi qulluqçuların bilik və bacarıqlarını təkmilləşdirmələri üçün ideoloji otaq, məişət və çay yeri, camaşırxana vardır. Yataqxana binası bütün kommunal sistemlərlə təchiz olunub. Əsgərlər burada televizora baxa, istirahətlərini mənalı keçirə bilirlər.

Tanışlıq zamanı aydın olur ki, şəxsi heyətin qidalanmasına ciddi nəzarət edilir, keyfiyyətli yerli ərzaq məhsulları düzgün şəraitdə saxlanılır, xüsusilə qış aylarında yemək menyularına immuniteti gücləndirən təbii qidalar əlavə olunur.

Yataqxana ilə qısa tanışlıqdan sonra həyətə çıxır, əsgərlərin kütləvi toplaşdığı əraziyə üz tuturam. Vətənin keşiyini çəkən mərd oğullarla söhbətim olduqca maraqlı, yaddaqalan alınır.

İlk həmsöhbətim Osman Cəfərlidir. O, hərbi xidmətə Kəngərli rayonundan çağırılıb. Nümunəvi xidməti ilə komandirlərin hörmətini qazanıb. Vətən oğlu keçdiyi şərəfli xidmət barədə qürurla danışır:

– Hələ ali təhsil aldığım illərdə əsgərlikdən qayıdan dostlarıma, böyük qardaşıma hərbi xidmət barədə çoxlu suallar verər, məlumatlanmağa can atardım. Onlar böyük fərəhlə deyərdilər ki, əsgərlik əsl kişilik, mətinlik, dözümlülük məktəbidir.



Onun sirlərinə yaxşı bələd olmaq üçün Vətənin keşiyində dayanmalı, həmin duyğuları yaşamalısan. Deyirlər, Vətənin əvvəli-axırı olmaz, onun hər qarışı doğmadır, əzizdir, hər şeydən dəyərlidir. Bəli, bu, belədir. Həm də ön xətdə, düşmənlə bir addımlıqda xidmət etməyin məsuliyyəti, burada yaşananların insanın daxili aləminə, mənəviyyatına müsbət təsiri böyükdür. Postda durduğum vaxtlar şahidi olmuşam ki, mənfur düşmənlər olduqca acınacaqlı bir şəraitdə xidmət keçirlər. Lakin öz hərbi hissəmizə nəzər salanda həm yaradılan şəraitin gözəlliyi, həm də əsgər yoldaşlarımın əhval-ruhiyyəsi mənə xoş təsir bağışlayır. Bunlar torpaqlarımızın tezliklə azad olacağına inamımı daha da artırır. Söhbət düşmüşkən onu da deyim ki, səngərdən əzəli yurdumuzu seyr edərkən dəfələrlə ucadan hayqıraraq düşmənə, rədd olun tarixin hansı üzüqara səhifəsindən gəlmisinizsə, çıxıb gedin ora, – demək istəmişəm. Ancaq hisslərimi cilovlayaraq fikirləşirəm ki, "özgə atına minən tez düşər" ifadəsi hədər yerə söylənməyib, onlar onsuz da gec-tez doğma torpağımızdan çıxıb gedəcəklər. O torpaqlar dünən də bizim idi, bu gün də bizimdir, sabah da bizim olacaq.

İdman meydançasını seyr edərkən yoldaşları arasında cəldliyi ilə seçilən bir əsgər diqqətimi çəkir. Yaxınlaşıb öyrənirəm ki, o, Tovuz rayonundan hərbi xidmətə çağırılan Elnar Vəliyevdir. Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölməsində xidmət keçdiyi üçün böyük qürur hissi keçirdiyini vurğulayır. Deyir, Naxçıvanda xidmət edəcəyimi biləndə ailəmizin hər bir üzvü çox sevindi. Çünki buradakı xidmətin nümunəvi olması barədə çox eşitmişdik. Artıq altı aydır, buradayam və bu qısa zaman çərçivəsi mənə, ilk növbədə, gələcək həyatımda atacağım addımlarda, görəcəyim işlərdə necə davranmalı olduğumu aşılayıb. Komandirlərimizin bizə kiçik qardaşları kimi doğma münasibət bəsləmələri, nöqsanlarımızı aradan qaldırmağımız üçün təmkinli şəkildə tövsiyə verməleri olduqca fərəhli haldır. Zabitlərdən birinin biz əsgərlər üçün dediyi, "Qardaşlarım, unutmayın, hərbi xidmətdə qazanılan dostluq heç vaxt itmir və başqa dostluqlara bənzəmir" ifadəsi qulaqlarımda səslənir. Elə atalarımız da "Dost dar gündə tanınar" deyimini əbəs yerə söyləməyiblər. Bəli, burada xidmət etdiyim müddətdə, çətinlik çəkdiyim anlarda yanımda olan, mənə dostluğun müqəddəs bir hiss olduğunu öyrədən çoxlu dostlar qazanmışam. İnanıram ki, bu səmimi münasibətlərimiz ömürboyu davam edəcək. Əsgərlik dövrünün mənə bəxş etdiyi digər əvəzolunmaz hədiyyə isə fiziki gücümlə bağlıdır. Belə ki, mən əvvəllər idmana indiki qədər həvəs göstərməzdim. Lakin burada olduğum qısa zamanda həm yaradılan idman şəraiti, həm də komandirlərin məşq prosesini düzgün şəkildə qurmaları mənə olduqca müsbət nəticələr qazandırdı. Hərdən qohum-əqrəba, dost-tanış məni görməyə gələndə gülümsəyərək deyirlər ki, öz aramızdır, əsgərlik sənə yaman düşüb, lap idmançıya oxşayırsan. Yeri gəlmişkən fürsətdən istifadə edib ata-anama da çatdırmaq istəyirəm ki, gözləri arxada qalmasın, hər zaman fəxr etsinlər ki, övladları belə yüksək əhval-ruhiyyənin hökm sürdüyü orduda xidmət edir.

Məşğələ keçən əsgərlərin arasında Bakı şəhərinin Nəsimi rayonundan hərbi xidmətə çağırılan İbrahim Mustafayev də fəallığı ilə diqqətimi çəkir. Yaxınlaşıb onunla da söhbətləşirəm. Əlahiddə Ümumqoşun Ordunun sıralarında xidmət etdiyi üçün böyük fərəh hissi keçirdiyini deyir: – Burada olduğum müddətdə dillərdən düşməyən "Vətən səngərdən başlayır" ifadəsinin reallığını yaşadım. Onu da gördüm ki, düşmən olduqca cılız, xam xəyallarla yaşayan biridir, nə əlindəki silah, nə də ayaq basdığı torpaq onunkudur. Onlar bir həqiqəti dərindən dərk etməlidirlər ki, keçmişi olmayanın yaddaşı, yaddaşı olmayanın gələcəyi ola bilməz. Son dövrlərdə döyüş bölgələrində əsgərlərimizin şücaət salnaməsi yaratması, qazanılan qələbələr bizi ruhlandırır, böyük zəfər gününün yetişəcəyinə inamımızı daha da artırır.

Vətənin dəyanətli, döyüş ruhlu, vətənpərvər oğulları ilə sağollaşıb, geri qayıdıram. Yolboyu bayaqdan yaddaşımın bir küncünə ilişib qalan düşüncələrim dil açır. Yataqxana ilə tanışlıq zamanı otaqdakı stolun üzərində əsgər məktublarını görməyimi xatırlayır və aşağıdakı misraları dodaqaltı pıçıldayıram:

*Əsgər məktubunda torpaq göyərir,*
*Meşələr uzanır üfüqlərəcən.*
*Əsgər məktubunda bir dağ göyərir,*
*Ətək də Vətəndir, zirvə də Vətən.*

Bəli, çox gözəl deyiblər ki, təsadüf yoxdur, olacaqları yaşayırıq. Bu gün hər bir azərbaycanlı əmindir ki, tezliklə işğal olunmuş torpaqlarımızın azad olunacağı günləri yaşayacağıq. Məhz o gün zəfər nəğməsi üçrəngli bayrağımızı göylərə yüksəldən əsgərimizin təkcə qəlbində deyil, həm də dilində səslənəcək.

**Nail ƏSGƏROV**

---

***AMEA-nın Naxçıvan Bölməsində görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyi münasibətilə keçirilən tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb, rəssamın irsinin öyrənilməsinə və tədqiqinə göstərilən dövlət qayğısından danışıb.***

## Görkəmli rəssam İbrahim Səfiyevin yubiley tədbiri keçirilib



Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 17 oktyabr tarixli Sərəncamı Türk dünyasının tanınmış rəssamının həyat və yaradıcılığının daha geniş tədqiq olunmasına və öyrənilməsinə xidmət etməklə bərabər, həm də görkəmli sənətkarın irsinə göstərilən diqqətin və muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva "İbrahim Səfiyevin həyat və yaradıcılığı" mövzusunda çıxışında bildirib ki, görkəmli rəssam İbrahim Səfiyev Şərur rayonunda dünyaya göz açıb, kiçik yaşlarından rəsmə həvəs göstərib. On iki yaşında ikən "Araz balıqçıları" adlı ilk rəsmini çəkib. Onun atası dövrün savadlı, bədii ədəbiyyatı sevən, Şərq klassiklərinin əsərlərini oxuyan, sözü və yazdığı şeirləri ilə İbrahimin qəlbində rəssamlığa, incəsənətə qarşı ilk qığılcımları oyadan insan olub.

İbrahim İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra iki il Moskvadakı Rəssamlıq İnstitutunda, hazırlıq kursunda təhsil alıb. Lakin Rusiyadakı 1917-ci il inqilabı hadisələrindən təsirlənərək təhsilini yarımçıq qoyub Naxçıvana, doğma diyara qayıdıb. Həmin illərin çətinlikləri rəssamdan da yan keçməyib. Belə ki, o, Şərurda rəsm çəkərək çörəkpulu qazanmağa başlayır.

Vurğulanıb ki, rəssam Birinci Dünya müharibəsi illərində Zaqafqaziyadakı ordunun tərkibində Türkiyəyə gedir və həyatını burada qurur. İbrahim Səfiyev İstanbulda Gözəl Sənətlər Akademiyasına daxil olur, 1923-cü ildə buranı bitirir. Qeyd edək ki, Türkiyənin məşhur rəssamı Namiq İsmayıl da bu akademiyada təhsil alıb. İbrahim təhsilini bitirdikdən sonra onun emalatxanasında müsafir tələbə olaraq çalışır.

Türkiyədə İbrahim Səfiyevi Mustafa Kamal Atatürkün portretini çəkən ilk rəssamlardan biri kimi də tanıyırlar. O, iki dəfə Atatürkün portretini naturadan çəkir. Bu portretdə dahi şəxsiyyətin obrazını sənətkarlıq kamilliyi ilə yanaşı, tarixi gerçəkliyi də inandırıcı şəkildə ifadə edə bilib.

Parisdə nəşr olunan "Orient" qəzeti onun haqqında yazırdı: "Səfiyev öz dövründə türk rəssamları arasında güclü sima kimi fərqlənir. O heç bir zaman rəssamlığı abstraksiyaya çevirən konsepsiyalar ardınca getmir. Tamaşaçılar İbrahim Səfiyevin parlaq boyalarına, incə nüanslarına valeh olurlar. Rəssamın mənzərələri o qədər təsirli və canlıdır ki, onlara baxarkən istər-istəməz romantika haqqında düşünürlər".

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova "Görkəmli rəssam İbrahim Səfiyevin yaradıcılığında janr müxtəlifliyi" mövzusunda çıxışında diqqətə çatdırıb ki, yaradıcılığında dünya incəsənətinin mütərəqqi ənənələrini davam etdirən görkəmli sənətkar boyakarlığın müxtəlif janrlarında çoxlu tablo, o cümlədən mənzərələr, natürmortlar, portretlər yaradıb. Bəzi mənzərə və natürmortlarındakı şux, şəffaf kalorit, rənglərin oynaqlığı rəssamın özünəməxsus yaradıcılıq üslubunu bir daha sübut edir.

Qeyd olunub ki, mövzusu müxtəlif predmetlərin təsvirindən ibarət olan natürmort janrında İbrahim Səfiyev əsl rəssamlıq məharəti ilə dövrünün ruhunu, öz hiss və duyğularını çox gözəl ifadə edə bilib. Rəssamın bu janrda çəkdiyi rəsm əsərləri məzmunla formanın mükəmməl vəhdətindən ibarətdir. Natürmort janrı İbrahim Səfiyevin fırçasında bədii formada təzahür edir. Bu, rəssamın rəngkarlıqda yeni təsvir metodu yaratdığının göstəricisidir. "Gül vazası", "Natürmort" əsərləri rənglərin parlaq formada təsvirindən ibarət olmaqla, yeni təsvir metodu ilə çəkilmiş sənət əsərlərindəndir.

Portret janrı İbrahim Səfiyevin yaradıcılığında təsvir metodu baxımından orijinallıq təşkil edir. Onun çəkdiyi portretlərin, demək olar ki, hamısında sima görünüşündən başqa, şəxsiyyətlərin daxili aləmini və ruh halını görmək mümkündür.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "İbrahim Səfiyevin yaradıcılığının tədqiqi məsələləri", Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Elbrus İsayevin "İbrahim Səfiyevin yaradıcılığı: tarixi ənənələr və müasirlik", Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Naxçıvan Dövlət Universitetinin baş müəllimi Həbibə Allahverdiyevanın "İbrahim Səfiyevin yaradıcılığında milli kalorit" mövzularında çıxışları dinlənilib.

Vurğulanıb ki, müxtəlif sənət cərəyanlarına, təzadlı rəssamlıq üslublarına yaxından bələd olan İbrahim Səfiyevin yaradıcılığında realizmə üstünlük verilib, dünya incəsənətinin mütərəqqi ənənələri davam etdirilib. Əsərləri Türkiyə, Fransa, Avstriya, ABŞ, İsveçrə və digər ölkələrdə fərdi sərgilərdə nümayiş olunub. Tanınmış rəssam bəzi əsərlərini Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə bağışlayıb, bir neçə əsəri 1989-cu ildə Bakıda keçirilən "Əzizim, Vətən yaxşı..." sərgisinin ekspozisiyasına daxil edilib. Əsərləri Türkiyədə və dünya muzeylərində, o cümlədən şəxsi kolleksiyalarda, Azərbaycan İncəsənət Muzeyində saxlanılır. İbrahim Səfiyevin rəsm əsərləri hazırda Osmanlı dövründən bu günə qədər qorunub saxlanılan Topqapı Muzeyini, Dolmabağça və Çırağan saraylarını daha da zənginləşdirib.

**Ramiyyə ƏKBƏROVA**

*Jurnalist araşdırması*

# “Doğma sahillər”, mühafizə olunan körpü, DTK-nın hədiyyəsi...

## *Sovet dövründə Naxçıvanda çəkilmiş ən son bədii filmin kadrarxası*

“...Filmin bir hissəsi həmin körpünün üstündə çəkilmişdi. Orada milislərin postu da var idi. Milislər gecə-gündüz həmin postda keşik çəkir, körpüyə nəzarət edirdilər. Mən o zaman sərhəd dəstəsində sürücü işlədiyim vaxt bir dəfə Zaqafqaziya Sərhəd Qoşunları Komandanlığından yüksək rütbəli hərbçilər gəlmişdilər, söhbət etdilər və yolumuza davam etdik. Sonradan öyrəndik ki, sərhədçilərlə bağlı çəkiləcək filmin bəzi hissələri burada lentə alınacaq...”

Haqqında bəhs edəcəyim filmin çəkilişləri ilə bağlı yazı hazırlayarkən keçmiş sovet sərhədçisi Adil kişinin bu sözləri mənə çox maraqlı gəlmişdi. O deyirdi: – Sərhəd məntəqələrindən kənarda, daxili avtomobil yolu üzərində yerləşən və o qədər də böyük olmayan bir körpünün Sovetlər Birliyi zamanında mühafizə olunmasına nə ehtiyac vardı? Bu suala cavab tapmaqda yeganə ümidim həmin dövrdə orada xidmət etmiş milis işçilərini tapıb söhbətləşməyə qalırdı. Söhbət Naxçıvan-Culfa magistral yolunun Culfa rayonu ərazisində yerləşən və el arasında “Dərəlik körpüsü” adlanan körpüdən gedir...






Naxçıvan hər zaman tarixi keçmişi, maraqlı təbiət əraziləri ilə diqqət çəkib. Elə bu maraqdan irəli gəlir ki, qədim diyarda bir çox ekran əsərlərinin müəyyən hissələri və ya natura çəkilişləri aparılıb. “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Əzablı yollar”, “Gümüşgöl əfsanəsi” məhz bu cür filmlərdəndir. Sovet dövründə burada çəkilən filmlərdən biri də “Doğma sahillər” filmidir. Bir çox Azərbaycan filmlərinin redaktoru olmuş Əhmədağa Muğanlının “Tikanlı məftillər” povesti əsasında çəkilmiş film Azərbaycanın ilk sərhədçi generalı Mustafa Nəsirov, bütövlükdə, sərhədçilər və onların şərəfli əməyi haqqındadır. Filmdə iki qonşu dövlət – İran və Azərbaycan tərəfinin birgə su elektrik stansiyası inşa etməsindən bəhs olunur. Lakin bu əməkdaşlıq Qərb dairələrində müsbət qarşılanmır və hər vəchlə bu işi pozmağa cəhd edirlər. Sərhədçilərin təxribat törətməyə can atan düşmənlərlə mübarizəsi filmin əsas süjet xəttini təşkil edir. Filmin Naxçıvandakı çəkilişlərinin kadrarxası ilə bağlı apardığımız araşdırmalar zamanı maraqlı faktlarla qarşılaşdıq...

Filmin çəkilişi üçün 1988-ci ilin yayında Naxçıvana böyük bir aktyor truppası gəlir, hazırlıqlar aparılır. Qeyd edək ki, filmin yaradıcı heyəti kifayət qədər peşəkarlardan təşkil olunmuşdur. Belə ki, Əbdül Mahmudov filmin quruluşçu rejissoru, Kənan Məmmədov quruluşçu operatoru, Arif Məlikov isə bəstəkarı idi. Bundan əlavə, “Doğma sahillər” filmində Həsən Məmmədov, Rasim Balayev, Tariyel Qasımov, Həmidə Ömərova, Muxtar Manıyev kimi kifayət qədər tanınmış aktyorlar iştirak edir. Filmin əsas çəkilişləri Babək, Culfa və Ordubad rayonlarında, pavilyon çəkilişləri isə Bakıda aparılır. Kadrlarda Naxçıvanda çəkilən ərazilərin hər biri özünəməxsusluğu ilə seçilir. Aradan keçən 30 illik bir zaman çərçivəsində Naxçıvanın hərtərəfli inkişafının fonunda istənilən tikilinin və yaxud ərazinin eləcə də kadrlardakı obyektlərin simasının dəyişilməsi təbiidir. Buna görə də yazını hazırlayarkən filmin çəkildiyi yerlərin, demək olar ki, hamısını bir daha gəzməli oldum...

Qeyd etdik ki, filmdə Araz çayı üzərində su elektrik stansiyasının tikintisindən bəhs olunur. Əslində, bu kadrlar indiki Heydər Əliyev adına Su Anbarının bənd hissəsinin tikintisi aparılan yerdə lentə alınıb. Yük maşınlarının hərəkəti, tikintidə çalışan işçilərlə bağlı ümumi kadrlar elə rakursdan lentə alınıb ki, çəkilişlərin keçmiş Vayxır gölü ətrafında aparıldığının fərqinə varmaq olmur. O vaxt burada çalışmış inşaatçılardan Əbülfəz İsmayılov bizimlə söhbətində bildirdi: “Bu film çəkiləndə bizə əvvəldən xəbər verilmişdi ki, Bakıdan aktyorlar gəlib və tikinti gedən sahədə film çəkiləcək. İşçilərin bir qismini də epizodik rollarda lentə alacaqdılar. Çəkiliş üçün əlavə ağır yük maşınları da gətirmişdilər. Mən həmin filmdə digər işçi yoldaşlarımla birlikdə beton panellərin yerə döşənilməsi zamanı bir neçə saniyəlik kadrlara düşmüşük”.

Filmin çəkilişlərində Azərbaycan Respublikasının Xalq artisti Rövşən Hüseynov da iştirak edib. Onun oynadığı Təvəkkül rolu su elektrik stansiyasının tikintisində işləyən yük maşınının sürücüsüdür.

Araşdırmalar nəticəsində dəqiqləşdirdik ki, filmin kadrlarındakı yeməkxana vaxtilə Ordubad rayonunda dəmiryol vağzalına gedən yolun kənarında yerləşib.

“Doğma sahillər”dəki sərhəd zastavası isə Culfa şəhərində yerləşən sərhəd məntəqəsində lentə alınıb. Çəkilişlərin müəyyən hissələri indiki gömrük-keçid məntəqəsi yerləşən ərazidə aparılıb. Sərhədçilərin təlim keçdiyi kadrlar isə Nehrəm kəndinin yaxınlığındakı təlim mərkəzində çəkilib.

Bundan əlavə, filmdə Ordubad rayonunun Darkəndindən aktyor İntiqam Soltan, Naxçıvan şəhərindən bir çox rus, amerikan, tacik, fransız filmlərində tryuklar quruluşçusu kimi özünü təsdiq etmiş və hazırda Azərbaycan Kaskadyorlar Assosiasiyasının sədri olan Əli Məmmədov çəkilib.

Yazını hazırlayarkən hazırda Bakı şəhərində yaşayan aktyor Eldəniz Rəsulova (kapitan Rəsulov), filmin rejissoru Əbdül Mahmudovla da əlaqə saxladıq. Onların hər biri Naxçıvandakı çəkilişlərlə bağlı xoş xatirələrini dilə gətirdilər. Rejissor Əbdül Mahmudov dedi ki, həmin filmə böyük aktyorlar dəvət olunmuşdu: “Latviya kinosunun nəhəng bir ulduzu vardı – Masyulisi, hansı ki amerikan kəşfiyyatçısını oynayırdı, Lev Prıqnov, Aleksandr Belov filmdə rol almışdılar. Əsas rollardan biri də iranlı general rolu idi. Bu rola mərhum şairimiz Nüsrət Kəsəmənlini çəkmişdim. Heç zaman filmdə rol oynamamış Nüsrət həmin rolu elə oynamışdı ki, hamı məəttəl qalmışdı. Bu, onun həyatda çəkildiyi yeganə film oldu”.

Rejissor çəkiliş zamanı baş vermiş bir maraqlı hadisəni də danışdı. Dedi ki, filmdə ikinci planda görünən bütün dağlar İrana məxsusdur. Vertolyotla çəkilişimiz olmalı idi. Təsadüfən marşrutu müəyyən etməmişdik. Nə isə, çəkilişə başladıq, bir də baxdıq aləm dəydi bir-birinə. Sən demə, bizim çəkiliş üçün istifadə etdiyimiz vertolyotu sərhədi icazəsiz keçdiyi üçün vurmaq istəyiblər. Pskovun xəbərdarlığından sonra vertolyotu 5 dəqiqə gec endirsə idik, bizi sərhəddə vuracaqdılar. Bundan əlavə, filmdəki son epizodlardan olan qayalıqlardakı çəkiliş çox təhlükəli idi. Onu düz Arazın qırağında ekranlaşdırdıq. Bunun üçün aktyorların – Həmidə Ömərova, Həsən Məmmədov və Gümrah Rəhimovun dilindən əvvəlcədən izahat almışdım”.

...“Doğma sahillər” filminin müəyyən hissəsi üçün çəkilişlər Naxçıvan-Culfa avtomobil yolunun üzərində yerləşən “Dərəlik körpüsü”nün üstündə aparılıb. Filmin buradakı çəkilişləri ilə bağlı yaşı 80-dən yuxarı olan Əli Məhərrəmovla Culfa rayonunun Camaldın kəndindəki evində görüşüb söhbət edirik. Ömrünü ictimai asayişin qorunmasına həsr etmiş Əli kişi deyir ki, 1962-ci ildən 1989-cu ilin may ayınadək milisdə xidmət edib. Xidmətinin əsas hissəsi həmin körpünün mühafizəsi ilə bağlı olub. Həmsöhbətim bildirir ki, filmin çəkilişlərindən əvvəl körpünün məhəccərləri boyadılmış, yolun ortasında keçid qapısı (simvolik olaraq İran-Azərbaycan sərhədini bildirən) qoyulmuşdu. Fasilə zamanı bəzən aktyorlarla da qısa ünsiyyətdə olurduq. Çəkiliş zamanı Rasim Balayev daha çox yadımda qalıb. Çünki o, iranlı hərbçi rolunu oynayırdı, hərbi forması bizimkilərdən fərqli idi deyə, hamımız maraqla baxırdıq... Nəhayət, Əli dayıdan sovet dövründə o körpünün nəyə görə mühafizə olunduğunu soruşuruq. Müsahibimiz bir az fikrə getdikdən sonra danışmağa başlayır: “Dərəlikdəki həmin körpü II Dünya müharibəsi dövründə tikilib. Körpünün aşağı hissəsində də həmin tarixlər yazılıb. Belə eşitmişəm ki, körpünün tikilişində alman əsirləri iştirak edib. Nə dərəcədə doğrudur, bilmirəm. Ancaq onu bilirəm ki, əvvəllər Əlincə çayının suyu bol olub. Əgər indi körpünün dayaqlarına diqqətlə baxsanız, vaxtilə suyun hansı səviyyədə olduğunu ora həkk olunmuş cizgilərdən də görərsiniz. Bu körpü Naxçıvandakı bütün körpülərdən fərqlənir, çünki tikintisində yaylardan istifadə olunub, yəni yaylı körpüdür. Körpünün hər iki tərəfində xüsusi yeri var ki, ildə bir dəfə oradan yaylara yağ əlavə olunurdu. O ki qaldı körpünün mühafizəsinə, bunu ona görə etmişdilər ki, əgər həmin körpü olmasaydı, Naxçıvan şəhərinin Culfa və Ordubad rayonları ilə avtomobil nəqliyyatı əlaqəsi olmayacaqdı...”

Bu fikirləri Saltaq kəndində yaşayan Heydər kişi də təsdiqləyir. 1963-cü ildən 1991-ci ilədək həmin körpüdə mühafizə milisində işləyən Heydər kişi bildirir ki, körpünün yükgötürmə qabiliyyəti 20 ton olsa da, işlədikləri dövrdə bu amilə xüsusi diqqət yetiriblər. Heydər kişi bir hadisəni də bizə maraqla nəql etdi: “Körpünün mühafizəsi üçün gündəlik növbəyə 3 nəfər milis işçisi çıxırdı və əsas vəzifəmiz mühafizəni düzgün təşkil etmək, ayıq-sayıq olmaq idi. 1968-ci ilin yayı idi. Mən, Əli Məhərrəmov, bir də Ərəzin kəndindən Hətəm həmin gün növbədə idik. Gecədən xeyli keçmişdi... Birdən qulağımıza, haradasa yaxınlıqdan ayaq səsləri gəldi. Yəni normal olaraq gündüz belə, o tərəfə heç kim keçmirdi, həm də buna icazə vermirdik. Buna görə də orada kiminsə olmağı əvvəlcə ağlımıza belə, gəlmədi. Birdən, təxminən, 20-30 metr aralıda bir qaraltı bizə tərəf yox, yan istiqamətdə hərəkət etməyə başladı. Diqqətlə baxıb gördük ki, iki nəfərdir. Uca səslə dayanmalarını tələb etsək də, onlar başqa istiqamətdə qaçmağa başladılar. Silahımız üstümüzdə idi, havaya xəbərdarlıq atəşi açdıq və ardınca qaçaraq onlara yetişdik. Bir az sorğu-sual, gördük ki, bunların danışığında fərqli ləhcə var. Hər ikisini tutub posta gətirdik və bölməyə məruzə etdik. Bölmədən gələnədək məsələ bizim üçün aydınlaşdı – “qonaqlarımız” dövlət sərhədini pozmuşdular. İki gün sonra xəbər tutduq ki, onları Bakıya apardılar. Elə bir gün sonra məni və Əlini də Bakıya göndərdilər. DTK-nın mərkəzi aparatında bizi pul mükafatı və saatla təbrik etdilər. Zarafat deyildi, dövlət sərhədini pozan iki şəxsi zərərsizləşdirmişdik...”

... “Doğma sahillər” filmi sovet dövründə Naxçıvanda çəkilmiş ən sonuncu bədii film oldu və bu sənət əsəri 1989-cu ildə ekranlara çıxdı. 120 illik kino tariximizdə öz yeri olan filmə görə rejissor SSRİ Kinematoqrafiya İttifaqının və Zaqafqaziya Sərhəd Qoşunları Komandanlığının baş mükafatına layiq görüldü. Sovet dövründə çəkilməsinə baxmayaraq, milli elementlərin böyük ustalıqla əks olunduğu film bu gün də hər kəs, o cümlədən sərhədçilərimiz tərəfindən maraqla izlənilir.

**P.S.** Kinorejissor Əbdül Mahmudov bizimlə söhbətində bildirdi ki, Naxçıvanın təbii gözəlliyi, məğrurluğu hələ də gözümün qarşısından getmir. Bu qədim diyar hər bir yaradıcı insan üçün əsl ilham mənbəyidir. Buna görə də orada bizim çox gözəl filmlərimiz çəkilib, milli mədəniyyətimizin yaddaşına həkk olunub. Məlumatım var ki, Azərbaycanın bu qədim diyarı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli qayğısı ilə əhatə olunub, mədəniyyətimizin inkişafı üçün orada çox işlər görülüb. İnanıram ki, Naxçıvan bundan sonra da gözəl filmlərimizin çəkiliş ünvanı olacaq.

**Səbuhi HƏSƏNOV**

# *“Vətənə bağlı şair ömrü”* kitabının təqdimatı olub



“Naxçıvan” Universitetinin Pedaqoji fakültəsinin təşkilatçılığı ilə Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudovanın şair-publisist Vaqif Məmmədova həsr olunmuş “Vətənə bağlı şair ömrü” kitabının təqdimatı keçirilib.

Tədbiri universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu açaraq bildirib ki, kitabda Aypara Behbudovanın şair Vaqif Məmmədovun yaradıcılığına dair on beş il ərzində apardığı tədqiqatların bəhrəsi olan ayrı-ayrı məqalələri toplanıb. Bu kitab şairin yaradıcılığının əsas istiqamətlərini və mövzu dairəsini geniş şəkildə işıqlandırmaq baxımından təqdirəlayiqdir.

Tədbirdə Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent Nüşabə Məmmədovanın, həmin kafedranın müəllimləri İman Cəfərlinin, Nicat Yaqubovun, “Naxçıvan” Universiteti Elmi Kitabxanasının baş kitabxanaçısı Emilya Süleymanovanın və Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasının IV kurs tələbəsi Könül Cəfərsoyun çıxışları dinlənilib.

Universitetin rektoru, professor İsmayıl Əliyev Aypara Behbudovanın elmi-pedaqoji fəaliyyətini yüksək dəyərləndirərək ona yeni yaradıcılıq uğurları arzulayıb.

Müəllif ona yaradılan şəraitə, göstərilən diqqətə görə minnətdarlıq edib.

Tədbirdə müəllifin yaradıcılığı ilə bağlı videoçarx nümayiş olunub.

**Nuray ƏSGƏROVA**

# Üçgünlük tibbi aksiya keçirilib



*Akademik Mirəsədulla Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının bir qrup professor-həkim heyəti Ordubad və Şahbuz Rayon Mərkəzi xəstəxanalarında humanitar tibbi aksiyalar keçirib.*

Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan aksiyada Klinik Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə 26 yüksəkixtisaslı həkim və orta tibb işçisi iştirak edib. Aksiyada 1480 nəfər ambulator müayinə ilə əhatə olunub.

Aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olan 63 nəfər üzərində əməliyyatlar aparılıb. 3 gün davam edən aksiyada pasiyentlər müxtəlif müayinələrdən keçiblər.

Şahbuz rayonunda isə 41 nəferin müayinə və müalicəsi həyata keçirilib. Aztəminatlı ailələrdən 42 nəfərin üzərində ümumi cərrahi əməliyyatlar aparılıb.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 930